**Azərbaycan Respublikasının**
**Belçika Krallığındakı Səfirliyi**

| | |
|---|---|
| **Haradan:** | SBRS |
| **İcra üçün:** | MİHİ, MRTİ, MHSİ, MİƏİ |
| **Məlumat üçün:** | MNKT, Aİ üzv ölkələrindəki Səfirliklərimiz, SVŞN, NAVŞ, NNAT |
| **Sənədin №** | SBRS/ 139 /17 **Tarix:** 17/02/2017 |
| **Sənəd necə göndərilməsi:** | Elektron poçt |
| **Səhifələrin sayı:** | 2 **Əlavə olunur:** |
| **Məhdudluğu qrifi:** | Adi |
| **Təciliyi:** | Çox təcili |
| **Vacibliyi:** | Çox vacib |

**Məsələyə dair:** *İşğal olunmuş ərazilərimizə qanunsuz səfər etmiş AP üzvü F.Engellə bağlı Azərbaycan-Lüksemburq parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Elmira Axundova adından adından Lüksemburq parlamentində aidiyyəti siyasi partiya rəhbərliyinə müraciətin ünvanlanması imkanlarının araşdırılması təklifi barədə*

Azərbaycan Respublikasının
xarici işlər nazirinin müavini
cənab Mahmud Məmməd-Quliyevə

Hörmətli Mahmud müəllim,

Məlum olduğu kimi, AP-də Aİ-Ermənistan dostluq qrupunun sədr müvaini Frank Engel (Avropa Xalqları Partiası (AXP), Lüksemburq) və üzvü Yaromir Ştetina (AXP, Çexiya) Dağlıq Qarabağda keçirilmiş qondarma "referendum"u müşahidə etmək üçün ölkəmizin işğal olunmuş ərazilərinə səfər etmişlər. Bununla əlaqədar olaraq Azərbaycan tərəfinin

atdığı addımların davamı olaraq, Milli Məclisin (MM) Azərbaycan-Lüksemburq parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Elmira Axundovanın adından F.Engelin mənsub olduğu Lüksemburq sosial-xristian partiyasının rəhbərliyinə müvafiq müraciətin ünvanlanmasını məqsədəmüvafiq hesab edirik.

Sözügedən müraciətdə qanunsuz səfər etmiş AP üzvü F.Engelin öz partiyasının imicini korladığı, eləcə də ölkəsinin Azərbaycanla ikitərəfli əlaqələrinə kölgə saldığı vurğulana bilərdi.

Azərbaycan-Çexiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, MM-in sədr müavini Valeh Ələsgərov adından Y.Ştetina ilə bağlı analoji məktubun ünvanlanması məsələsinə isə ölkəmizin Çexiyadakı Səfirliyi ilə əlaqələndirilməklə baxılmasını təklif edirik.

Məsələ ilə bağlı Azərbaycan Respublikasının Prezidenti Administrasiyası və Milli Məclisinin məlumatlandırılmasını xahiş edirik.

Nəzərdən keçirilməsi üçün diqqətinizə təqdim olunur.

**Müvəqqəti işlər vəkili Zaur Əhmədov**______________

**İcraçı:** Səbuhi Qasımov (3156)